

# "Şuşa ili"ndə Şuşa teatrı tərtərlilərin qonağı olub

**Bu günlərdə Tərtər Rayon Mədəniyyət Mərkəzinin səhnəsində Şuşa Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivi tərtərlilərə M.F.Axundovun "Hekayəti-Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını təqdim edib. Tamaşaya rayon ərazisində yerləşən hərbi hissələrin əsgərləri, Vətən müharibəsi iştirakçıları, qazilər və rayon ictimaiyyətinin nümayəndələri gəliblər.**

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov qeyd edib ki, "Şuşa ili"nin ilk günlərində Şuşa teatrının qonağımız olması bizi ürəkdən sevindirir. Çünki Şuşa şəhəri bütün xalqımız üçün əzizdir və möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, Şuşa milli mədəniyyətimizin, incəsənətimizin beşiyidir. 2022-ci ilin "Şuşa ili" elan olunması ilə bağlı ölkə rəhbərinin Sərəncamı həm Şuşanın, həm də Azərbaycan mədəniyyətinin inkişafına öz töhfələrini verəcək.

Sonra Şuşa Dövlət Musiqili Dram Teatrının təşkilati işlər üzrə direktor müavini Elnurə Abdullayeva çıxış edərək böyük mütəfəkkir Mirzə Fətəli Axundovun yaradıcılığı, onun dram əsərləri haqqında məlumat verib.



Tamaşanın quruluşçu rejissoru, Əməkdar artist Loğman Kərimovdur. Rollarda Əməkdar artist Azad Məmmədov, Püstəxanım Zeynalova və başqaları oynayırlar. Sonda rayon icra hakimiyyətinin başçısı tərəfindən teatrın yaradıcı heyətinə xatirə hədiyyəsi təqdim olunub.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

Respublika.- 15 yanvar.- 2022- ci il.- S. 6.